## KÖÇÜNÜ YIĞIR PAYIZ

*Uçub gedir durnalar,*
*Həzin nəğmə deyərək.*
*Külək yarpağı yolar,*
*Budaqları əyərək.*

*Çöllər, düzlər, meşələr*
*Yağış altda yuyulur.*
*Hərdən də qırov düşür,*
*Qar havası duyulur.*

*Köçünü yığır payız*
*Bağçalardan, bağlardan.*
*Qış özünü yetirir,*
*Xəbər gəlir dağlardan.*

*Yaşıl donu soyunub*
*Ağaclar ağ geyinər.*
*Payız öz varı ilə,*
*Qış da qarla öyünər.*

## YATAĞAN AYI

*Qış gəlib, ayı hanı?*
*Belində qar yorğanı*
*Gedib şirin yuxuya,*
*Səbəb yoxdu qorxuya.*

*Nə qartopu oynadı,*
*Nə xizəkdə sürüşdü.*
*Qış qapını alan tək*
*Tezcə yuxuya düşdü.*

*Xorultusu meşəyə*
*Bütün qışı yayıldı.*
*Hava isinən kimi*
*Yuxusundan ayıldı.*

## VƏTƏN YARASINA MƏLHƏM OL, ƏSGƏR!

*Şuşasız, Laçınsız Vətən olarmı?*
*Bayquşlar bağında məskən salarmı?*
*Qisas qiyamətə söylə, qalarmı?*
*Vətən yarasına məlhəm ol, əsgər!*
*Döyüşə gedirsən, yaxşı yol, əsgər!*

*Doğma Qarabağın yolları bağlı,*
*Gözəl Kəlbəcərin qolları bağlı.*
*Daha dağların da sinəsi dağlı,*
*Vətən yarasına məlhəm ol, əsgər!*
*Döyüşə gedirsən, yaxşı yol, əsgər!*

*Qaytar Zəngilanı, qanınla qaytar,*
*Qaytar Qubadlını, canınla qaytar.*
*Düşmən tapdağından Göyçəni qurtar,*
*Vətən yarasına məlhəm ol, əsgər!*
*Döyüşə gedirsən, yaxşı yol, əsgər !*

*Zəngəzur çağırır, səsinə səs verir,*
*Yad əldə boğulur, gedib nəfəs ver.*
*Düşmənə qalmasın bircə qarış yer,*
*Vətən yarasına məlhəm ol, əsgər!*
*Döyüşə gedirsən, yaxşı yol, əsgər !*

*Borçalı, İrəvan unudularmı?*
*Təbriztək dünyada bir şəhər varmı?*
*Dərbənd də vətəndi, keçmək olarmı?*
*Vətən yarasına məlhəm ol, əsgər!*
*Döyüşə gedirsən, yaxşı yol, əsgər!*



## GÖZÜ YOLDADIR

*Axan göz yaşımız daşları dəlib,*
*Çəkdiyim nalələr göyə yüksəlib.*
*İntiqam almağın zamanı gəlib,*
*Doğma Qarabağın gözü yoldadır.*

*Dağılan şəhərlər, kəndlər sənindi,*
*Bu dərdə dözməyib dağlar da dindi.*
*Bir "Cəngi" havası çalınsın indi,*
*Doğma Qarabağın gözü yoldadır.*

*Vətən haray çəkir, Vətən yaralı,*
*Bizdən kömək umur bəxti qaralı.*
*El-oba qoynundan düşüb aralı,*
*Doğma Qarabağın gözü yoldadır.*

*Ey Vətən övladı, atam, qardaşım,*
*Ey könül həmdəmim, dostum, yoldaşım,*
*Sarılaq silaha, ey silahdaşım,*
*Doğma Qarabağın gözü yoldadır.*

**Nahidə Xəqaniqızı**